Hökümət

Hökümətin qərarı I:26

# ƏDLIYYƏ NAZIRLIYINƏ

2014. 04. 16

Azərbaycanın Ədliyyə Nazirliyinə
Insaatçılar küçəsi 1
AZ 1073 Bakı
Azərbaycan

Azərbaycana ekstradisiya ilə bağlı sorğu
Əlavə 1

Hökümətin qərarı

Hökümət sorğunu rədd edir

Məsələ

2013-cü ilin fevral ayının 1 də Azərbaycanın Ədliyyə Nazirliyi öz ərizəsində tələb etmişdir ki, Azərbaycan vətəndaşı Məhərrəmov Tural, doğum tarixi aprelin 1 1982, məsuliyyətə cəlb edilməsi üçün Azərbaycana verilsin. Dəlil kimi 2012 -ci ilin 19 mart tarixli həbslə bağlı məhkəmə tərəfindən təyin edilmiş qərardan məlum olmuşdur ki, o Isveç qanununda Dövlət organlarının qanunlarını pozulmasına, fabrik nisanlarının saxtalaşdırılmasına, xırda cinayətə, hakimiyyət nümayəndəsinə qarşı zor tətbiq etməsinə və sənəd saxtalaşdırılması ilə bağlı olan dələduzluğa müvafiq olan cinayətlərdə tutarlı səbəblər əsasında şübhəli bilindiyinə görə həbsə alınmalı imiş.

Hökümət cinayətkarların təhvil verilməsi ile bağlı olan 1957:668 qanununun 15 maadəsinə müvafiq olaraq, işi dövlət ittihamcısına vermişdir. Dövlət ittihamcısı həmin işin baxilması üçün şəxsi ərizəsi ilə Ali Məhkəməyə müraciyyət etmişdir.

13 mart 2014- cu il tarixində Ali Məhkəmə tərəfindən çıxarılan qərarda bildirilmişdir ki, Dövlət organlarının qanunlarını pozulmasına, fabrik nişanlarının saxtalaşdirilmasına ve xırda cinayətə gəlincə ekstradisiya ilə bağlı olan qanununun 10-cu maadəsinin, 2-ci abzasına əsasən cinayət məsuliyyətinə cəlbetmə, yaxud ittiham hökmünün icrası müddətlərinin keçməsi ekstradisiya üçün maneə törədir.
Bundan əlavə Məhərrəmov Turalın Azərbaycana verilməsi Avropa konvensiyasının 3-cü maadəsinə də ziddir, əlavəyə bax.

Istintaq nəticəsində bildirilir ki, Məhərrəmov Tural ekstradisiyaya razılaşmır və buna ekstradisiyanın Avropa konvensiyasının 3-cü və 6-ci maadələrinə zidd olduğunu əsas kimi gətirir.

---

Poçt ünvanı
103 33 Stockqolm

Vizit üçün ünvan
Rosenbad 4

Telefon kommutatoru
08 405 10 00

Telefaks
08 20 27 34

Elektron ünvan. ju.registator@regeringskansliet.se

Teleks
178 20 PREMIER S

## Hökümətin qərarının səbəbləri

Belə ki, Ali məhkəmə ekstradisiya ilə bağlı olan qanuna əsasən maneə asgar etmişdir, adı çəkilən qanunun 20-ci maadəsinə uyğun olaraq ekstradisiya ilə bağlı olan sorğuya razılıq bildirilmir.

Hökümət ali məhkəmənin qərarı ilə razılaşaraq Məhərrəmov Turalın Azərbaycana ekstradisiyasının Avropa konvensiyasının 3- cü maadəsinə uyğun olmadiğını bildirib. Bu səbəbdən ərizəyə tamamilə rədd cavabı verilir.

Hökümətin adından

Beatrice Ask

Ida Jonzen

Surəti

Ali Məhkəməyə (Ö 5326-13)
Prokurorluğa
Dövlət ittihamçısının dəftərxanasına (ÅM 2013/3917)
Göteborg şəhərində yerləşən Beynelxalq prokurorluğa (AM-83650-13)
Dövlət cinayət polisinə, beynəlxalq polis əməkdaşlığı bölməsinə (IP-2012-016602)
Vəkil Sten-Åke Karlssona

# Ali Məhkəmənin
# 13 mart 2014-cü ildə Stokqolmda çıxardığı

## QƏRAR

Işin nömrəsi
Ö 5326-13

Sorğu edən dövlət
Azərbaycan

Barəsində sorğu edilən şəxs
Məhərrəmov Tural, 820401-3018
Azərbaycan vətəndaşı
Östra Åtorpsvägen 11
455 31 Munkedal

Dövlət müdafiəçisi Vəkil Ann-Sofie Magneson
Hammar KB Vəkil firması
Box 119
461 23 Trollhättan

Dövlət müdafiəçisi (substitut yolu ilə) Vəkil Sten-Åke Karlsson
Hammar KB Vəkil firması
Box 154
451 16 Uddevala

---

Ali Məhkəmə
Riddarhustorget 8

Poçt ünvanı
Box 2066
103 12 Stokqolm

Telefon 0856166600

Telefaks 0856166686

E-ünvan hogsta.domstolen@dom.se
www.hogstadomstolen.se

Qəbul vaxtları:
08.45-12.00
13.15 -15.00

# Əsas mətləb

Cinayətkarların təhvil verilməsi ilə bağlı olan (1957:668) qanunvericiliyin 18-ci maadəsinə əsasən işə baxılma

Ali məhkəmənin qərarı

Məhkəmə qərarı ilə bir avtomobilin müsadirə olunmasına Tural Məhərrəmovun maneə törətməsinə, onun adı çəkilən avtomobildən qeyri qanuni şəkildə istifadə etməsinə və saxta dövlət nömrə nişanlarından istifadə etməsinə gəldikdə cinayətkarların təhvil verilməsi ilə bağlı olan qanunvericiliyin (1957:668) 10-cü maadəsinə əsasən Ali Məhkəmə maneə olduğunu açıqlayır. Bundan əlavə Tural Məhərəmovun təhvil verilməsi Avropa Konvensiyasının 3-cü maddəsinə də zidd olduğu bldirilir.

Tural Məhərrəmov üçün təyin olunan Vəkil Ann-Sofie Magnessona Dövlət büdcəsindən 34 695 kron ayrılır. Bu məbləğ dövlət büdcəsi hesabına ödənilir. Məbləğdən 23 287 kron zəhmət haqqı, 1710 kr əlavə itirilən zaman üçün, 2759 kron xərclər üçün və 6 939 kron isə Əlavə dəyər vergisi üçün nəzərdə tutulmuşdu.

Ekstradisiya ile bağlı sorğu

1. Azərbaycanın Ədliyyə Nazirliyi Azərbaycan vətəndaşı olan Tural Məhərrəmovu cinayət məsuliyyətinə cəlbetmək ücün təhvil verilməsini istəyib.

Baş prokurorun və Tural Məhərrəmovun münasibəti

2. Iş istintaq üçün Baş prokurora keçdikdən sonra o, ekstradisiya haqqında olan 17- ci maddəyə əsasən isi öz şəxsi rəyi ilə Ali Məhkəməyə ötürmuşdur.

3. Belə ki, Isveç qanununa əsasən cinayət məsuliyyətinə cəlbetmə, müddətləri keçmişdir Baş prokuror məhkəmə qərarı ilə bir avtomobilin müsadirə olunmasına Tural Məhərrəmovun maneə törətməsinə, onun adı çəkilən avtomobildən qeyri qanuni şəkildə istifadə etməsinə və saxta dövlət nömrə nişanlarından istifadə etmesinə gəldikdə, cinayətkarların təhvil verilməsi ilə bağlı olan qanununun 10- cu maadəsinin 2- ci abzasına əsasən ekstradisiya üçün maneə olduğnu dəlil kimi gətirir.

4. Bundan əlavə Tural Məhərrəmovun təhvil verilməsi Avropa Konvensiyasının 3-cü maadəsinə də zidd olduğunu bildirir. Azərbaycanda baş verən hallar nəzərə alınarsa əlavə olaraq bildirilir ki, barəsində sözu gedən şəxsin təhvil verilməsi Avropa Konvensiyasının 3- cü və 6- cı maaddələrinə uyğun deyil.

5. Tural Məhərrəmov təhvil verilməyə etiraz edir ve Baş prokurorun ekstradisiya üçün maneə mövcud olması ilə bağlı olan fikirlə tam razilaşır.
6. Barəsində sorğu edilən Tural Məhərrəmov onun verilməsi haqqında məsələ həll edildiyi zaman azadlıqdan məhrum olmayıb.

## şəxsin verilməsinə əsas olan cinayətin təsviri

Dəlil kimi 2012 -ci ilin 19 mart tarixində Yevlaxin yerli məhkəməsində çıxarılan həbslə bağlı qərar təqdim olunmuşdur. Qərara əsasən Məhərrəmov Tural 16 sentyabr 2011-ci il tarixində bir avtomobildən saxta dövlət nömrə nişanlarından istifadə edərək qeyri qanuni şəkildə istifadə etməkdə və bununla adı çəkilən avtomobilin müsadirə olunmasına maneə törətməkdə şübhəli şəxs kimi bilinmişdir. Bundan əlavə hadisə ilə əlaqədər o, hüquq mühavizə orqanlarının bir nümayəndəsinə qarsı zor tətbiq etməkdə və 2011-ci ilin avqust ayında əldə olunan kreditin alınması məqsədi ilə rəsmi sənədin saxtalasdirilmasında şubhəli bilinmişdir.

## Tural Məhərrəmovun bildirdikləri

7. Tural Məhərrəmov ekstradisiya ilə bağlı olan sorğuda göstərilən cinayətlərdə təqsirli olduğunu inkar edir və aşağıdaki dəlilləri gətirir.
Ona qarşı sürülən ittihamlar saxta və uydurulmuşdur və onun Azərbaycana verilməsi məqsədini daşıyır. O, Azerbaycanda siyasi baxışlarına görə təqiblərə məruz qalmışdır. Mühacirət idarəsinin Məhkəməsi tərəfindən 2013- cü ilin 13 noyabrinda Məhərrəmov Tural və onun həyat yoldaşına daimi yaşama icazəsi və alternativ səbəblər əsasında qorunmaga ehtiyacı olan şəxs statusu verilmişdir.

## Ali məhkəmənin dəyərləndirilməsi

8. Ekstradisiya ilə baglı olan qanunun 9-cu maddəsinin 3-cü abzasına əsasən xarici dövlətlə razılasma olduğu halda və həbslə bağlı olan qərarın ya hökmün yanlış olmadığı halda, barəsində sorğu olan şəxsin cinayət məsuliyyətinə cəlb edilməsi və ya məhkəmə və ya qazı tərəfindən təyin edilmiş cəzanın icrasınının həyata keçirilməsi sorğu alan dövlət tərəfindən qəbul olunmalıdır. Azərbaycan da Isveç kimi Ekstradisiya haqqında Avropa Konvensiyasına goşulmuşdur, bu da onun sözü gedən 9-cu maadənin 3-cü abzası ilə razı olduğunu bildirir. Məhkəmə tərəfindən həbslə bağlı çıxarılan hökmün doğru olmasına şubhə olmadığı halda həmin hökm sorğu alan dövlət tərəfindən qəbul olunmalıdır. Belə ehtimalin olmadığı üçün həbslə bağlı hökm verilməyə əsas kimi götürulə bilər.

9. Ekstradisiya haqqında olan qanunvericiliyin 10-cu maadəsinin ikinci abzasına əsasən Isveç qanununa görə cinayət məsuliyyətinə cəlbetmə, yaxud ittiham hökmünün icrası müddətləri keçdikdə şəxsin verilməsinə raziliq verile bilmez. Məhkəmə qerari ilə bir avtomobilin müsadirə olunmasina Tural Məhərrəmovun maneə törətməsinə, onun adı çəkilən avtomobildən qeyri qanuni şəkildə istifadə etməsinə və saxta dövlət nömrə nişanlarından istifadə etməsinə gəldikdə, bu kimi cinayətlər Isveç qanununda Dövlət organlarının qanunlarının pozulmasina, fabrik nisanlarının saxtalaşdırılmasına, xırda cinayətə müvafiq olması hesab edilir. Belə cinayət növləri üçün ən uzağı 6 ay və ya ən uzağı 1 il azadlıqdan məhrum etmə cəzası nəzərdə tutulur. Cinayət üçün nəzərdə tutulan cəza növü ən uzağı 1 illik həbsdən ağır olmazsa cinayət məcəlləsinin 35-ci maadəsinin 1-ci bəndinin 1-ci abzasına əsasən 2 ildən sonra cinayət məsuliyyətinə cəlbetmə, yaxud ittiham hökmünün icrası müddətləri keçmiş sayılır. Odur ki, bu cinayətlə bağlı ekstradisiya üçün maneə mövcuddur.

10. Digər törədilmiş cinayətlərə qaldıqda isə cinayətkarların təhvil verilməsi haqqında olan qanunvericiliyin 1-10 bəndlərinə əsasən ekstradisiya üçün hec bir maneə yoxdur.

11. Avropa Konvensiyasının 3-cu maadəsində göstərilmişdir ki, verilməsi nəticəsində sorğu edilən şəxsin sorğu edən dövlətdə işgəncələrə, yaxud qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftara, yaxud cəzaya məruz qalacağını güman etməyə kifayət qədər əsaslar olduqda dövlət şəxsi cinayət məsuliyyətinə cəlbetmə üçün təhvil verə bilməz. Konvensiyanın 6- cı maadəsində hüquqi müdafiəni təşkil edən əsas tələblər göstərilir.

12. Xarici Işlər Nazirliyindən alınan Azərbaycandakı insan hüquqlarına dair olan 2011-ci ildə yazılan raportdan məlum olur ki, ölkədəki məhkəmə sistemi icracı organlardan asılı olmadan hərəkət etmir.

Həmçinin rəsmi mənbələrdə ölkədəki hakimlərin səriştəsiz olduqları və müttəhimlərin müdafiələri üçün olan sistemin zəifliyi və bu sahədə inkişaf azlığının problem təşkil etdiyi vurğulanır.

Polis bölmələrində, dustaqxanalarda və digər dövlət organları tərəfindən idarə olunan idarələrdə işgəncə, yaxud, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar çox geniş yayılmış bir problemdir. Bir çox dustaqxanalarda şərait acınacaqlı olaraq qalır, belə ki, onlara həddindən artıq çox dustaq yerləşdirilir, verilən qida çox keyfiyyətsizdir və göstərilən tibbi yardim qənaetbəxş deyil. Bu da vərəm və digər yoluxucu xəstəliklərin yayılması ilə nəticələnir. Bu vəziyyət haqda Human Rights Watch, Azerbaijan Country Summary January 2012 də öz təsdiqini tapmışdır.



13. Əvvəl çıxarılan qəraradan (NJA 2009 N 24) sitat gətirməklə 2010- cu ildə "Yeni Huquqi Arxivdə" çap olunan 47 saylı məhkəmə işinde Ali Məhkəmə 2007 -ci ildə Xarici Işlər Nazirliyindən alınan müvafiq raporta əsaslanaraq, xüsusilə etirafa nail olmaq səbəbilə törədilən isgəncə və ləyaqəti alçaldan rəftarla, məhkəmə sistemində olan vəziyyət və hüquqşunasdan istifadə etmək imkanlarının məhdud olması ilə baglı olan məlumatın əsasında Azərbaycana cinayətkarın təhvil verilməsi Avropa konvensiyasının 3-cü ve 6 -cı maddələrinə ziddiyyətli olardı.

14. Ali Məhkəmənin dəyərləndirməsinə görə əvvəlki illərin istintaqlarına nəzər saldıqda işgəncə və ləyaqəti alçaldan rəftarla bağlı olan vəziyyət qəti dəyişməmişdir. Bu səbəbdən Məhərrəmov Turalın Azərbaycana ekstradisiyası Avropa Konvensiyasının 3- cü maadəsinə uygun olmazdı.

6- cı maadəyə əsaslandıqda isə Məhərrəmov Turalın törətdiyi cinayətlə bağlı Azərbaycana ekstradisiyası üçün maneənin mövcudluğuna dair istintaq yetərincə əsas vermir. (Yeni Huquqi Arxiv 2009, seh 280 ile müqaisə et)

Qərarın çıxarılmasında istirak edənllər:

Ədliyyə Muşavirləri: Marianne Lundius
Ann-Christine Lindeblad (mehkemenin uzvu)
Kerstin Calissendorff
Svante O. Johansson
Dag Matsson
Məruzəçi ədliyyə katibi: Charlotte Edvardsson